ÜÇ ƏSRİN QƏZETİ Kaspi



## “ARTIQ ORTA MƏKTƏBDƏN AMERİKAYA GETMƏYİ PLANLAŞDIRIRDIM”

# KÜRDƏMİRDƏN HARVARDA QƏDƏR GEDƏN AZƏRBAYCANLI

MÜSAHİBƏ



SÖHBƏTLƏŞDİ:
AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Xəyallarında səyahət etdiyi, təhsil aldığı yerdədir. Düşüncənin gücünə inanır, onu bu məqama məhz düşüncələrinin gətirdiyi fikrindədir. Ona görə, daim yenilənməli, dəyişməliyik. Pessimistlik isə ən böyük düşmənidir. Düşünür ki, uğura ən böyük manеə pessimist düşüncədir.

Müsahibimiz oftalmoloq, Kornea mütəxəssisi Aytən Musayevadır.

Kürdəmir məktəbindən məzun olub. Tibb təhsilini Azərbaycanda alıb. Rezidentura təhsilini Almaniya - Maynsda davam etdirib, eyni zamanda araşdırmalar aparıb. İndi isə dünyanın ən yaxşı tibb məktəbi olaraq qəbul edilən Harvard Tibb Məktəbində post-doktorantura üçün Kornea xəstəliklərini araşdırır.

### “MÜMKÜN OLMAYAN HEÇ NƏ YOXDUR”

● **Aytən xanım, Kürdəmirdən Harvarda gedən yoldan danışaq. Bu yol kənardan tələbələrə mümkünsüz görünür.**

● Xeyli sayda tələbə var ki, potensialının yüksək olmasına baxmayaraq, digər ölkələrə getməyə, komfort zonadan çıxmağa qorxur. Amerikada təhsil almaq və işləmək istəyim 5-ci sinifdə formalaşıb. İngilis dili müəllimimizin bizə keçdiyi dərsin strukturu, quruluşu, eyni zamanda da ingilis dilli ölkələr haqqında verdiyi məlumat məndə maraq yaratdı və o ölkələr haqqında informasiya topladım. Artıq orta məktəbdən Amerikaya getməyi xəyal edirdim. Yaşım artdıqca bu arzum məqsədə çevrildi. İnsan istədikdən və düşündükdən sonra yoluna haradan başlaması önəmli deyil. Mümkün olmayan heç nə yoxdur. Məqsəd insanı arzusuna çatdırır. Ona görə də Kürdəmirdən Amerikaya gedən yol mənə əlçatmaz görünmədi.



### “DÜNYA YALNIZ YAŞADIĞIN REGİONDAN İBARƏT DEYİL”

● **Top universitetlərdə təhsil almaqla bağlı şəhər məktəblisinin regiona nisbətən şansının daha çox olduğu düşünülür. Siz bu tabunu da qırmısınız?**

● Bəli, həqiqətən, onların şansı daha çoxdur. Bütün böyük universitetlər, təhsil müəssisələri, kurslar Bakıda cəmlənib. Amma inkişaf etmək istəyən, arzularının ardınca gedən insan üçün region, şəhər fərq etmir. Dünya yalnız yaşadığın regiondan ibarət deyil. Uşaqlıqdan özünə sərhəd qoymamalısan. Cismin olmasa da, düşüncələrin bütün dünyanı gəzməlidir. Ümumiyyətlə, insanın inkişafı 99 faiz özündən asılıdır. İstəyəndə alınır.

### “ƏLLƏRİNDƏ OLAN SƏNƏTƏ ÖGEY YANAŞIRLAR”

● **Amma bəzən valideyn qayğıkeşliyi uşağın düşünməsinə mane olur.**

● Bəli. Nəinki başqa ölkəyə, başqa şəhərə göndərdikdə belə, narahat olurlar. Mən günahı birbaşa valideynlərdə görmək istəmirəm. Kifayət qədər yaşı və gələcəyinə dair planlar qurmaq qabiliyyəti olan insanlar var ki, tək diplomla kifayətlənirlər. Əlimdə sənətim olsun, bəs edər deyirlər. Amma əllərində olan sənətə də həddindən artıq ögey yanaşırlar. Mən burada valideynlərdən daha çox həmin gənclərin özünü günahlandırıram. Valideynlərin informasiyası yoxdur. Bizim informasiyaya çıxışımız onların dövrünə əsasən, daha çoxdur. Valideynə düzgün informasiya verdikdə, problem həll olunar. Valideyn bəhanədir, gənclərin özündə istəksizlik var.

> “Amerikada təhsil almaq və işləmək istəyim 5-ci sinifdə formalaşıb. İngilis dili müəllimimizin bizə keçdiyi dərs məndə maraq yaratdı və o ölkələr haqqında informasiya topladım. Artıq orta məktəbdən Amerikaya getməyi planlaşdırırdım”.





### “BURADA İNSAN HƏR GÜN ÖYRƏNİR”

● **Almaniyadan sonra təhsilinizi Amerikada davam etdirmisiniz. Almaniya tibb təhsili üçün kifayət deyildi?**

● Almaniyada tibbi biliklərimi çox inkişaf etdirdim. İstər tibb, istərsə də klinik cəhətdən xeyli öyrəndim. Amma qəbul etmək lazımdır ki, Amerika tibbi və kliniki araşdırmalara görə dünyada 1-ci yeri tutur. Dünyanın ən yaxşı universitetlərinin cəmləşdiyi ölkədə təhsil almaq və işləmək möhtəşəm hissdir. Burada insan hər gün öyrənir. Yalnız bir tələbə kimi deyil, çalışaraq da öyrənirəm.

● **Aytən xanım, peşənizdən danışaq. Kornea sahəsində gözlə bağlı etdiyimiz ən böyük səhv nədir? Dərk etmədən edirik, amma kor ola bilərik.**

● Ən böyük səhvlərdən biri kontakt linzalardan istifadənin düzgün şəkildə olmamasıdır. Çünki bəzən kontakt linzaların satıldığı yerlərin onların istifadəsi haqqında məlumatı nəinki kifayət qədər, ümumiyyətlə olmur. İlk növbədə gigiyena qaydaları çox vacibdir. Məhz bu səbəbdən kifayət qədər çox kornea infeksiyalarına yoluxan, görmə problemləri olan xəstələrlə rastlaşmışıq. İkinci bir problem isə bunların optik cəhətdən səhv seçimidir. Yəni düzgün olmayan linza seçilirsə, təbii ki, görmə yaxşı olmur. Üçüncü problem linzaların müddətinə uyğun olmayan istifadədir. Bəzən günlük linzanı bir neçə gün istifadə edirlər. Yaxud gün ərzində istifadə olunur, gecə gözdən çıxarılmır. Bunun da ağırlaşmaları çox olur.



### “XƏSTƏNİ MÜALİCƏYƏ İNANDIRMAQ ƏN VACİB MƏSƏLƏDİR”

● **Bəzi bölgələrin spesifik xəstəlikləri olur. Göz xəstəlikləri ilə bağlı ölkə yaxud region fərqi varmı?**

● Bəli. Hətta nəinki yaşadığı yer, işlədiyi iş də onun hansı göz xəstəliyinə tutulmaq riski olduğunu bildirir. Ona görə insan göz şikayətləri ilə bağlı gələndə olduğu region, hətta son həftələrdə hansısa bölgəyə səfərinin olub-olmaması soruşulur. Çünki tozlu mühit, kimyəvi maddələrlə işləməsi, tropik bölgələrdə olması diaqnozun müəyyənləşməsində ciddi rol oynayır.

● **Aytən xanım, Harvardda həm oxuyur, həm işləyirsiniz. Deyirlər ki, müalicənin nəticəsinin yarısı həkimdən asılıdırsa, yarısı da xəstənin özündən asılıdır. Siz necə düşünürsünüz?**

● Xəstənin əgər müalicəyə inamı yoxdursa, onun sağalma faizi böyük ölçüdə aşağı düşür. Burada inam deyərkən, mövhumat nəzərdə tutulmur. Xəstənin inamı varsa, müalicəsinə məsuliyyətlə yanaşır və qorxu olmur. Bəzən xəstədən xəstəliyi gizlədilir. Bu, düzgün deyil. Əgər həmin insanda öz vəziyyəti barədə məlumat varsa və həkiminə inanırsa, öz qorxularının üzərinə gedir. Qorxu, stress, həyəcan olmayan insanda da bioloji proseslər elə istiqamətdə dəyişir ki, risk dərəcəsi aşağı düşür. Təəssüf ki, xəstələrin sayı çox olduqda, həkimlər sadəcə olaraq xəstəni tez qəbul edib, müalicəni yazıb, yola salır. Tək reseptlə xəstə sağalmır. Xəstə ilə söhbət etmək, ona məlumat vermək, vəziyyətin nə olduğunu izah etmək və müalicəyə inandırmaq ən vacib məsələdir.